**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MULTİKULTURALİZM VƏ MƏDƏNİYYƏTLƏRİN DİFFUZİYASI

İxtisas: 6219.01 Kulturologiya və onun ümumi məsələləri

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Firuzə Kamal qızı Raşova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin "İctimai fənlər" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Sabirə Səfi qızı Dünyamalıyeva**

Rəsmi opponentlər: sənətşünaslıq üzrə elmlər doktoru, dosent
**Vəfa Xanoğlan oğlu Əliyev**

kulturologiya üzrə fəlsəfə doktoru
**Nailə Ədalət qızı Əliyeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Turanxanım Hidayət qızı Şirzadova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Memarlıq və İncəsənət İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.34–Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ________________ AMEA-nın müxbir üzvü, professor
**Ərtegin Əbdül Vahab oğlu Salamzadə**

Dissertasiya şurasının elmi katibi: ________________ sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xəzər Atif oğlu Zeynalov**

Elmi seminarın sədri: ________________ kulturologiya üzrə elmlər doktoru, dosent
**İlqar Həsrət oğlu Hüseynov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qloballaşma şəraitində inkişaf edən Azərbaycanın Avropa və dünya ictimaiyyətinə inteqrasiyası zamanı, onun daşıyıcıları arasında ümumi mədəni irsin mənimsənilməsi və qarşılıqlı anlaşmanın əldə edilməsi tələb olunur. Cəmiyyət intensiv mədəniyyətlərarası əlaqələrə hazır deyildi, bir çox insanlar öz və özgə milli-mədəni xüsusiyyətləri zəif dərk edirlər, və ya dərk etdikləri zaman mənimsəyərək öz mədəniyyətlərini unudurlar, məhz bu səbəbdən də mədəniyyətlərarası kommunikasiya problemlərinin öyrənilməsi aktuallaşır.

Hər bir ölkənin özünə məxsus mədəniyyəti var və həmin ölkələrin çoxunda da bir çox müxtəlif mədəniyyətlər mövcuddur. Digər ölkələrin mədəniyyəti ilə tanış olduğumuz zaman, mədəniyyətlərin oxşarlığını və bir-birinə qarışmasını müşahidə etmək mümkündür.

Azərbaycanda daha qədimdən müxtəlif xalqların və millətlərin, fərqli mədəni adət-ənənələri, inancları olan bir çox mədəni qrupların yaşayış yeri olmuşdur. Ona görə də burada mədəniyyətlərarası ünsiyyət problemləri iqtisadi və siyasi problemlərdən daha önəmlidir. İttifaq birliyinin dağılması və mədəni özünəməxsusluğunu, dövlət dilini müdafiə edən yaxın xarici ölkələrlə qarşılıqlı fəaliyyətin yenidən qurulması zərurəti, milli ziyalılar təbəqəsini formalaşdırır, bu problemə fərqli yanaşma və mədəniyyətlərarası ünsiyyət baxımından yaranan vəziyyətin dərindən anlaşılmasına ehtiyac yaradır.

Məhz praktiki tələbatlar yeni nəzəri tədqiqatların istiqamətini müəyyənləşdirir, mövcud tədqiqat paradiqmaların dəyişməsinə gətirib çıxarır, mədəni diffuziya və kommunikasiyanın öyrənilməsinə yeni evrestik yanaşmaların axtarılmasını şərtləndirir. Mədəniyyətlərarası kommunikasiyanın, mədəniyyətlərin xüsusiyyətlərinin öyrənilməsi sahəsində toplanmış məlumatlar, onların daşıyıcılarının qarşılıqlı fəaliyyəti, qarşılıqlı anlaşılması üçün mədəni diffuziyanı qaçılmaz edən zəruri şərtlərdir.

Mədəni diffuziya prizmasından kommunikasiya problemlərinin nəzərdən keçirilməsi aşağıdaki hallar ilə aktuallaşır. Dünyada digər milli mədəniyyətin təsirinə məruz qalmayan heç bir etnik birlik yoxdur. Bu təsir, bu gün ticarət, turizm və s. hadisələr zamanı dövlət institutları, ictimai hərəkatları, istehsal, elmi və digər kollektivlər arasında birbaşa

əlaqəni və müxtəlif mədəni mübadilələri reallaşdırır. Bu zaman müxtəlif mədəniyyətlərarası əlaqələrin sürətli inkişafı müxtəlif mədəniyyətlərin nümayəndələri arasında ünsiyyət bacarıqlarının formalaşmasından əhəmiyyətli dərəcədə üstüdür.

Mədəniyyətlərarası diffuziya nəticəsində yaranan mənimsəmə problemi xüsusi yer tutur. Onun aktuallığı bir tərəfdən dünyanın unifikasiyası tendensiyası arasında ziddiyyətlərin kəskinləşməsi digər tərəfdən isə müxtəlifliyə gətirib çıxaran proseslərlə əlaqədardır. Bu iki zidd meyllərin yanaşı mövcudluğu birinin dominantlığı və digəri üçün tendensiyalarının azaldılmasına şərait yaradan mexanizmlərə və mədəniyyətlərarası kommunikasiya formalarına yenidən müraciət etməyə məcbur edir.

Bu günkü reallıqda ümumi qloballaşma və dünya məkanının inteqrasiya çərçivəsində real problem yeni səslənmə kəsb edir. Əsas məsələ öz mədəni identikliyimizdən məhrum olmadan qloballaşma prosesinə daxil olmaqdan ibarətdir. Beləliklə, multikulturalizm problemi bu gün bütün dünya ictimaiyyəti qarşısında duran məsələlərin həllində nəzəri və praktiki axtarışları ilə bağlıdır.

Siyasətdə, iqtisadiyyatda və mədəniyyətdəki qlobal dəyişikliklər mədəni xüsusiyyətlərin eroziyasına gətirib çıxarır, bu prosesdə öz identikliyinin, mədəni dəyərlərinin və özünü təsdiqləmənin qorunub saxlanılması istəyi artır. Unifikasiyanın müqaviməti ilə bağlı diapazon mövqeləri olduqca genişdir: digər mədəniyyətlərin dəyərlərinin passiv rədd edilməsindən onların aktiv yayılmasına kimi. Nəticədə, biz millətçi fikirlərin artmasına, etnodini münaqişələrin ağırlaşmasına, fundamentalist hərəkatların formalaşmasına şahidlik edirik.

Belə çətin şəraitdə mədəniyyətlərin qarşılıqlı təsir və qarşılıqlı fəaliyyəti kontekstində mədəni diffuziya proseslərinin hərtərəfli araşdırılması və ciddi təhlilinə ehtiyac güclənərək artır. Beləliklə, mədəni diffuziya sosiomədəni nəticələrin öyrənilməsində yeni yanaşmaların axtarışlarının stimullaşdırılması, mədəniyyətlərarası kommunikasiyanın yeni modellərini yaradan və mədəniyyət sahəsini genişləndirən faktorlarınınterpretasiya üsüllarını stimullaşdırır.

Eyni zamanda tədqiqatın aktuallığı müasir cəmiyyətin qurulması prosesində fəlsəfi və mədəni konsepsiyasında əhəmiyyətli dəyişikliklərin olması ilə bağlıdır. Qlobal cəmiyyətin fəlsəfi konsepsiyalarından biri

müxtəlif mədəniyyətlərin inteqrasiyasıdır, bu mədəniyyətlərin bərabərhüquqlu qorunmasına və qarşılıqlı zənginləşməsinə və fəaliyyətinə imkan verən, multikulturalizm nəzəriyyəsi və təcrübəsidir.

Tədqiqat mövzusunun müxtəlif aspektləri həm Azərbaycan, həm də xarici ölkələrin alimləri tərəfindən tədqiq edilmişdir. Baxılan problemin multikulturalizm aspektləri qərb filosoflarından B. Parex[1], Ç. Teylorun[2] əsərlərində tədqiq olunmuşdur. Həmin əsərlərdə etniklik problemləri və mədəni qrupların kollektiv hüquqlarına B. Parexin və Ç. Teylorun yanaşmaları xüsusi olaraq diqqəti cəlb edir. Məsələn, "Tanınma" anlayışını daxil edən Ç. Teylor, insanların hansısa mədəni qruplara aid olduqlarını və qrup mənsubiyyətlərini onların identikliyinin zəruri elementi sayır. Bu xüsusiyyətlərin ümumi "tanınma"sının yoxluğunu, insanların ləyaqətinin azalması anlamına gəldiyini düşünür.

Multikulturalizm məsələlərində B. Parex[3]: " *mədəniyyətə donmuş və təklənmiş bir situasiya kimi baxmaq olmaz; mədəniyyəti müəyyən qrup ilə sərt əlaqələndirmək olmaz; və əksinə, mədənini sosialdan və iqtisadiyyatdan ayırmaq olmaz; insanlara dəyişkən eyniyyət məxsusdur; etiraf etmək lazımdır ki, qruplar arasındakı sərhədlər hərəkətlidir..."*və s. lazımı qeydlər etmişdir.

U. Kimlika [4]isə bir neçə qrup kateqoriyaları ayırır və onlara münasibətdə xüsusi siyasətin tələb olunduğunu bildirir və əsas iki qrup kateqoriya qeyd edir. Birinci–bu azlıqlardır, yəni böyük dövlətlərin tərkibinə daxil olmaları onların öz azad seçimlərinin nəticəsi olmayan və mədəniyyətləri sosial sayılan qruplardır. Onlar öz müstəqilliyinin qorunması üçün dövlətçilik tədbirlərinə qədər huquqları vardır. İkinci–başqa ölkəyə könüllü köçən və bununla öz mədəniyyətlərinin qorunub saxlanmasına iddia etməyən immiqrantlardır. Söhbət yalnız dövlətin

---

[1] Parekh B. Common Citizenship in Multicultural Societies // the Round Table. 1999. No351.

[2] Taylor Ch. The Politics of Recognition // Multiculturalism. Examining the Politics of Recognition / Ed. by A. Guttmann. Princeton, N.J.: Princeton University Press, 1994. (Первоизданиев 1992 г.)

[3] Parekh B.C. Rethinking Multiculturalism: Cultural Diversity and Political Theory. Cambridge, Mass.: Harvard University Press, 2000

[4] Kymlicka W. Multicultural Citizenship: A Liberal Theory of Minority Rights. Oxford: ClarendonPress, 1995

onların mədəni köklərinə hörmət göstərməsindən, bərabər hüquqların verilməsindən və qəbul edən cəmiyyətə rahatlıqla adaptasiya edə bilmələrindən gedə bilər. İmmiqrantlarla keçmişdə zülmə məruz qalan irqi qruplar əsas parametrlərlə demək olar ki, eynidir.

Ölkəmizdə müxtəlif xalqların mədəniyyətlərinin özünəməxsusluğunun spesifik problemi, dünya mədəni irsinin mənimsənilməsi, mədəni diffuziya ilə yanaşı baş verən proseslərin dərk edilməsi böyük alimlərin diqqətini çəkib. Bu alimlərin işləri sayəsində mədəniyyətin daxili strukturu və funksiyaların sistemli araşdırılması onun çoxsaylı anlayışı formalaşıb.

S. Artanovski[5], A. Bıstrov[6], Q. Pomeranc, Z. Mirkina[7], A. Rapoport[8] və s. kimi tədqiqatçılar mədəniyyətin forma və növlərini mədəniyyətlərarası əlaqələr prizmasından təhlil etmişlər. Tədqiqatçıların mədəniyyətin morfoloji təhlilinə yönəlmiş diqqətləri onun dializasiyasının təbiətinə vurğulamağa imkan verib.

Son illər ərzində mədəniyyətlərarsı diaqloq problemi, multikulturalizm və sivilizasiyaların qarşılıqlı əlaqələri, mədəniyyətin qloballaşma problemi fəal şəkildə Ə. Qubatov [9],Q.Cavadov[10],R. Musabəyov, M. İsgəndərzadə [11], M. Yaqubqızı [12], R. Aslanova [13], R.

---

[5] Артановский С.Н. Некоторые проблемы теории культуры. Вып. 1. -Л., 1977. -83 с.

[6] Быстрова А.Н. Мир культуры (Основы культурологии). М.: Изд-во Федора Конюхова; Новосибирск: ЮКЭА, 2002. 712 с.

[7] Померанц Г., Миркина З. Спор цивилизаций и диалог культур. Центр гуманитарных инициатив, 2014. 510 с.

[8] Рапопорт А. Единство в разнообразии – наследие европейской культуры. – Там же. Ежегодник 1997. М., 1997.)

[9] Qubatov, Ə. Azərbaycan xalqı ilə vahid qardaşlıq ailəsində /Ələkbər Qubatov; red. H.K.Quliyev; rəy.: M.Qasımov, H.Quliyev.- Bakı: Elm, 1991.- 200 s.

[10] Cavadov, Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik)/Qəmərşah Cavadov.- Bakı: Elm, 2000.- 440 s.

[11] Etnik azlıqların hüquqlarının təmin olunmasında və münaqişələrin tənzimlənməsində BMT-nin və ATƏT-in rolu /tərt. müəl.: Rasim Musabəyov, Mustafa İsgəndərzadə.- Bakı: "İnam" Plüralizm mərkəzi, 2000.- 40 s.

[12] Yaqubqızı, M. Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm: Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəkləri əsasında: monoqrafiya /Mətanət Yaqubqızı; elmi red. M.B.Əsgərov; ön sözün müəl.: M.B.Əsgərov, M.Ə.Mahmudov.- Bakı: Elm və Təhsil, 2016. - 184 s.

[13] Aslanova, R. Qloballaşma və mədəni müxtəliflik /Rəbiyyət Aslanova.- Bakı: Elm,

Mirzəzadə [14], S. Əhədova[15], N. Niftiyev [16], F. Məmmədov [17]və s. azərbaycanlı alimlər tərəfindən araşdırılır. Bu zaman iki əsas istiqamət aydın görünür: birinci istiqamətin nümayəndələri Azərbaycan və Qərb mədəniyyətlərinin qarşılıqlı təsiri və qarşılıqlı fəaliyyətinə diqqət ayırıllar; ikinci istiqamətin nümayəndələri isə Azərbaycanın özünəməxsusluğunu dünya sivilizasiyasının tərkib hissəsi kimi və xüsusi bir aləm kimi vurğulayıllar.

Tədqiqat mövzusu ilə bağlı dissertasiya səviyyəsində işlənilmiş elmi tədqiqat işləri də maraq doğurur. Azərbaycanda kulturoloqların materiallarından, alimlərin əsərlərindən və müdafiə olunmuş işlərdən: K. Abdulla[18], E. Nəcəfov[19], Ç. Abdullayev [20], İ. Hüseynov[21], N.

---

2004.- 264 s

[14] Mirzəzadə, R. Multikulturalizm siyasəti və Şərq-Qərb müxtəlifliyi: Gender, din və mənəviyyat /Rəna Mirzəzadə; elmi məsl. İ.Məmmədzadə; AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu.- Bakı: Təknur, 2012.- 160 s.

[15] Əhədova, S. Müasir dünyada mədəniyyətlərarası münasibətlər: monoqrafiya /Sevda Əhədova; elmi məsl. A.Mustafayeva; elmi red. və ön söz. müəl. İ.Hüseynova.- Bakı: Elm, 2014.- 347 s

[16] Niftiyev, N. Azərbaycanda birgəyaşayış və multikulturalizm /Niyaz Niftiyev; ön söz E.Nəsirov; elmi red. İ.Abbasov; Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi.- Bakı: [s.n.], 2015.- 407 s.

[17] Məmmədov, F. Kulturologiya, mədəniyyət, sivilizasiya: [ali məktəblər üçün dərs vəsaiti və şəxsiyyətin özünü təkmilləşdirilməsi üçün əldə rəhbər] /Fuad Məmmədov; elmi red., ideya müəl. və ön söz T.Nağıyev; tərc. və red. İ.Kəsəmənli.- Bakı: [OL], 2016.- 258 s.

[18] Abdulla, K. bəşəri dəyərlər sistemınə çox şey verə bilər: [Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullanın müsahibəsi] /Kamal Abdulla //Azərbaycan.- 2014.- 30 dekabr.- S.6; Yeni Azərbaycan.- 2014.- 30 dekabr.- S.4; Xalq qəzeti.- 2014.- 30 dekabr.- S.6; 525-ci qəzet.- 2014.- 30 dekabr.- S.5. 3054.

[19] Nəcəfov, E. Multikulturalizmin mahiyyətinə dair /Etibar Nəcəfov //Dövlət idarəçiliyi.- 2015.- S.103-112.

[20] Abdullayev, Ç. Almaniya-Azərbaycan əlaqələri.- B.:"Azərb.Milli En-sı", 2000.-153 s.

[21] Hüseynov, İ. Müasir mədəniyyətin tarixi-ənənəvi əsasları. Mədəniyyət dünyası. Bakı, VII bur., 2003, s. 107-113

Ələkbərova[22], O. Sultanov [23], S. Dadaşova [24], F. Fərəcova [25], və b. işlərindən faydalanmaq olar.

Mədəni diffuziya fenomeninə həsr olunmuş işləri xüsusi vurğulamaq lazımdır. Klassik diffuzionizm nümayəndələrinin F.Boas[26], F.Ratcel[27], L.Frobenuis[28], Q.E.Smit[29],əsərləri ilə yanaşı bura mədəni diffuziya və oxşar mədəniyyətlərin öyrənilməsi, mədəniyyətlərin "hibridləşdirilməsi" ilə məşğul olan müəlliflərin əsərlərini də aid etmək olar. Bunlar, R. L. Bilz[30], M. D. Xerskovic[31], L.Uayt[32] və s. kimi tədqiqatçılardır.

Eyni zamanda müasir tədqiqat metodları əsasında mədəniyyətlərarası kommunikasiya prosesində yaranan mədəni diffuziyanın araşdırılmasında kifayət qədər fəlsəfi və mədəni tədqiqat işinin olmadığını qeyd etmək lazımdır. Bütövlükdə tədqiqat mövzusu üzrə elmi ədəbiyyatın təhlili göstərir ki, onun ayrı-ayrı aspektləri həm Azərbaycanda, həm də xarici ölkələrdə, o cümlədən Rusiya tədqiqatçıları tərəfindən öyrənilsə də, mövcud əsərlərdə qoyulan problematika kulturoloji yanaşma çərçivəsində zəif göstərilmişdir. Hazırki dissertasiyada bu boşluğu tamamlamaq üçün cəhd edilir.

---

[22] Ələkbərova, N. Mədəniyyət və siyasət. Bakı, 2000, 287s.

[23] Sultanov, O. Tətbiqi kulturologiya mədəni siyasətin elmi təminatının vasitəsi kimi. Mədəniyyət dünyası. Bakı, VI bur., 2003, s. 58-63

[24] Дадашева, С. Культурология как методологическая основа культурной политики. Mədəniyyət dünyası. Bakı, VII bur., 2003, s.99-103

[25] Фараджева, Ф. Методическое пособие по культурологии для высших учебных заведений. Баку, 2001, 34 с.

[26]Boas F. Anthropology and modern life. N.Y.: Norton, 1928. 246 p.

[27]Ратцель Ф. Земля: 24 общедоступных беседы по общему землеведению. -М., 1882. -527 с.

[28]Фробениус Л. Детство человечества. СПб, 1910. 368 с.

[29] Г. Эллиот-Смит обосновал в книгах "Миграции ранней культуры" (1915) и "Человеческая история" (1930).

[30]Ральф Л.Билз. Аккультурация. / Антология исследований культуры, т.1 Интерпретации культуры,- http://lib.uni-dubna.ru/search/files/philantcultl/philantcult2.htm#25

[31]Мелвилл Д. Херсковиц (Melville Jean Herskovits) *Cultural Relativism. Perspectives in Cultural Pluralism.* hg. von Frances Herskovits. New York, 1972.

[32]Уайт Л. Избранное. Эволюция культуры. М.: Российская политическая энциклопедия (РОССПЭН), 2004. 1064 с.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsasməqsədi dünyada mövcud olan müxtəlif multikulturalizm modellərini Azərbaycan multikulturalizm modeli ilə müqayisə əsasında araşdırmaq, Azərbaycanda sülh və tolerantlığın inkişaf etdirilməsi üçün şəraitin yaradılmasını təmin etmək, dinlərarası konfliktlərin aradan qaldırılmasında müxtəlif elmi metodlardan istifadə etmək, multikulturalizmin rəsmi dövlət siyasəti kimi və ideologiyası kimi təbliğ etmək, mədəniyyətdə aludəçiliyin və sahiblənmənin mənfi təsirlərini təhlil etmək.

Bu məqsədə nail olmaq üçün aşağıdakı tədqiqat vəzifələri müəyyən edilmişdir:

- Multikulturalizm, mədəni diffuziya, mədəniyyətlər dialoquəsas anlayışlarını müəyyən etmək;
- Qloballaşma və miqrasiya şəraitində mədəniyyətlərarası əlaqələr sahəsinin problemlərini təhlil etmək;
- Azərbaycanda yaşayan müxtəlif azlıqların, dinlərin və millətlərin dövlət tərəfindən yaratdığı şəraitin təhlilini aparmaq; mədəniyyətlərarası kommunikasiya sahəsində mədəni diffuziyanın yerini, rolunu və formalarını müəyyənləşdirmək;
- Müxtəlif mədəniyyətlərin birgəyaşayış və digər səbəblərdən yaranan mədəniyyətlərin diffuziyası prosesini təhlil etmək və bu proses nəticəsində yaranan sahiblənmə və mənimsəmə xüsusiyyətlərinin təsirlərini müəyyən etmək;
- Azərbaycan multikulturalizminin dövlət ideologiyası və siyasəti kimi tədqiqi və təbliği yollarını, tolerantlığın əsas amillərini araşdırmaq və xüsusiyyətlərini müəyyən etmək.

**Tədqiqat metodları.** Dissertasiya tədqiqatı ümumi elmi, fəlsəfi mədəni prinsiplərə və ictimai hadisələrin öyrənilməsinə əsaslanır: sistemli yanaşma, tarixi və məntiqi metodlar. Tədqiqatın nəzəri bazasını problemlə bağlı fundamental əsərlər və onlarda irəli sürülmüş nəzəri müddəalar və konseptual ideya və mülahizələr təşkil edir. Müəllif müasir multikulturalizmdə baş verən hadisələri şərh edərək proseslərə obyektiv qiymət verməyə çalışmış, kəmiyyət, keyfiyyət, struktur təhlilin, habelə müqayisəli və kontent-təhlilin metodlarından istifadə etmiş. Tədqiqata Azərbaycan, rus, ingilis və türk dillərində yazılmış nəşr əsərləri cəlb olunmuş, eyni zamanda internet şəbəkəsində yerləşdirilmiş

məlumatlardan istifadə edilmişdir. Multikulturalizm dialektikasını araşdırarkən, müəllif mədəni müxtəliflik kontekstində hər bir mədəniyyətin özünə dəyər fikirlərini nəzərə alırdı.

Tədqiqat işinin yazılmasında fənlərarası metodoloji yanaşma tətbiq etməklə analiz, sintez, induksiya, deduksiya kimi ümummәntiqi metodlardan, eləcə də müqayisəli təhlil metodlarından istifadə edilmişdir. Kulturoloji tədqiqatların əsasında tarixilik prinsipi tədqiqata cəlb olunan hadisələri inkişaf dinamikasında canlandırmağa şərait yaratmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

- Azərbaycan siyasətində multikulturalizmin yerinin və rolunun müəyyən edilməsi;
- Multikulturalizm şəraitində yaranan etnik, dil və dini amillərin işıqlandırılması;
- Mədəniyyətlərin diffuziyası prosesində başverən təsirlərin nəticələrinin qiymətləndirilməsi;
- Azərbaycan multikulturalizm modelinin dünyanın mükəmməl model nümunəsi olaraq vurğulandırılması.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya işinin elmi yeniliyi ilk növbədə multikulturalizm və multikultural mühitdə mədəniyyətlərin bir-birinə keçərək nəticəsi ilə müəyyən olunur. Müəllif Azərbaycanda multikulturalizmin kompleksli tədqiqinə və multikulturalizmin mədəniyyətlərarası münasibətlərin sülh və tolerant şəraitdə qorunub saxlanılmasına yönəldilməsi ilə müəyyənləşdirilir. Məhz bu mövzuda kulturologiya sahəsində ilk dəfə olaraq dissertasiya səviyyəsində tədqiqat işi təqdim edilmişdir.

Daha konkret olaraq tədqiqat işinin elmi yeniliyini aşağıdakı müddəalarla ifadə etmək olar:

1. Dissertasiya işi səviyyəsində nəzəri yanaşmaların təhlili əsasında kulturoloji aspektdən mədəniyyətlərin diffuziyası anlayışının mahiyyəti açıqlanır, onun əsas istiqamətləri və funksiyaları nəzərdən keçirilir;
2. Müasir Azərbaycanda tolerant şüurun və multikulturalizmin formalaşmasının tarixi inkişafının mərhələləri aşkar edilmişdir;
3. Müəllifin "multikulturalizm" anlayışının, bir mədəniyyət fəlsəfəsinin əsas kateqoriyası olaraq bir ərazidə çoxsaylı mədəniyyətlərin

bərabərlik və milli mədəniyyət nümayəndələrinin özünü təsdiqləməsi şəraitində bir çox mədəniyyətlərin qarşılıqlı fəaliyyətini və konfliktsiz yaşamağını xarakterizə edən əsas təsviri verilmişdir. Azərbaycan multikulturalizm modelinin mahiyyəti və məzmunu açıqlanır;

4. Mədəniyyətlərarası kommunikasiya və qarşılıqlı fəaliyyət nəzəriyyəsi sahəsində klassik və müasir daxili və xarici tədqiqatların nəticələri ümumiləşdirilmişdir, müasir azərbaycan cəmiyyətində mədəniyyətlərarası münasibətlərin xüsusiyyətləri göstərilmişdir.

5. Azərbaycan mədəniyyətində mədəni diffuziya multikulturalizmin ayrılmaz elementidir və ksenofobiya, zoomorfizm və s. kimi mədəni hadisələrin yaranmasına səbəb olur;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, iş onun nəticələri və irəli sürülmüş tövsiyyələr baxılan problematikaya həsr olunmuş gələcək elmi tədqiqatlar üçün zəmin ola bilər. Multikulturalizm anlayışının mədəni diffuziyanın amil kimi qəbul edilməsi mədəniyyətin tarixi və nəzəri sahəsini genişləndirir.

Tədqiqatın nəticələri və tövsiyələri mədəniyyətlərarası əməkdaşlıq və təhsil sahəsində proqram hazırlayanlara, həmçinin dövlət və ya regional mədəniyyət siyasətinin müəyyən sahələrinə dair təkliflərin hazırlanması üçün faydalı ola bilər. Dissertasiyanın materialları və nəticələrindən problemlə bağlı elmi konfransların hazırlanmasında; tarix, mədəniyyət və multikulturalizm problemləri üzrə universitet mühazirələrində və xüsusi kurslarda istifadə edilə bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın məzmununu əhatə edən məqalələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının təqdim etdiyi siyahıya əsasən həm respublika, həm də xarici ölkələrin dövri elmi nəşrlərində dərc edilmişdir. Məqalələr dissertasiyanın məzmununu tam əhatə edir. Bundan başqa, müəllif dissertasiyanın mövzusu və ayrı-ayrı müddəaları ilə əlaqədar ölkəmizdə keçirilmiş respublika səviyyəli elmi-praktiki konfraslarda iştirak və məruzələrlə çıxış etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Turizm və Menecment Universiteti.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi girişdən, üç fəsildən, hər fəsil isə iki yarımfəsildən, nəticədən, istifadə olunmuş

ədəbiyyat siyahısından ibarətdir. Giriş –15.561, I - Fəsil – 72.097, 1.1. – 30.312, 1.2. – 41.723, II - Fəsil – 83.285, 2.1. – 42.882, 2.2. – 40.331, III - Fəsil – 55.031, 3.1. – 36.012, 3.2. – 18.930, Nəticə - 9.168, İstifadə olunmuş ədəbiyyat siyahısı 32.805 işarə olmaqla dissertasiyanın ümumi həcmi 267.947 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmaqla, tədqiqat mövzusunun işlənmə dərəcəsi, dissertasiyanın obyekt və predmeti, tədqiqatın məqsəd və vəzifələri, işin əsas müddəaları, tədqiqatın nəzəri-metodoloji əsasları, tədqiqatın elmi yeniliyi, dissertasiya işinin nəzəri və praktiki əhəmiyyəti, tədqiqat nəticələrinin aprobasiyası, dissertasiya işinin strukturunun qısa təsvirindən bəhs edilir.

Dissertasiyanın "**Mədəniyyətlərin diffuziyası prosesi, aludəçilik, sahiblənmə**" adlanan birinci fəslin **1.1.***"Mədəniyyətlərin dinc inkişafı və diffuziyası. Mədəniyyətdə aludəçilik, sahiblənmə və onun mənfi təsirləri"*adlanan birinci bəndində"mədəniyyət", "diffuziya", "mədəniyyətlərin diffuziyası" və s. terminlərin anlayışları verilmişdir. Mədəniyyətlərin diffuziyasından bəhs edilmişdir və bu proses nəticəsində baş verən sahiblənmənin mənfi tərəfləri araşdırılmışdır.

Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq şəraiti yaratmaq üçün beynəlxalq təşkilatlar qurulur. Belə ki, 16 noyabr 1945-ci ildə Londonda təşkil olunmuş konfransda 44 ölkənin təhsil nazirləri tərəfindən YUNESKO Təşkilatının Nizamnaməsi qəbul olunaraq yaradılmışdır. Bu Nizamnamə 20 ölkə tərəfindən təsdiq olunduqdan sonra 1946-ci il noyabrın 4-də qüvvəyə mindi. Bu təşkilatın əsas vəzifəsi müxtəlif xalqların, ölkələrin, qitələrin sülh və harmonik inkişafı üçün şəraitin yaradılması ilə bağlı beynəlxalq cəmiyyətlərin səylərinin əlaqələndirilməsidir. Həmçinin fərqli ərazilərdə yaşayan və müxtəlif sosial cəmiyyətləri təmsil edən insanlar arasında əməkdaşlıq və dostluq əlaqələrinin intensivləşdirilməsi üçün zəminlərin yaradılmasıdır.[33] 1966-

[33] Салтыков Б.Г. ЮНЕСКО. Роль в современном мире, перспективы // Международная жизнь. 1995. № 10.

ci il noyabrın 4-ü Parisdə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında təhsil, elm və mədəniyyət məsələləri üzrə dövlətlər birliyi üçün "Beynəlxalq mədəni əməkdaşlığın prinsipləri" bəyannaməsi qəbul edilmişdir. Bu beynəlxalq hüquqi akt BMT Nizamnaməsinin əsas müddəaları üzərində qurulur və bütün insanlar arasında qarşılıqlı əməkdaşlıq ruhunda insan ləyaqətini qorumaq üçün mədəniyyətin geniş yayılmasının lazım olduğu bəyan edilir.[34]

Dövlət bu sahədə beynəlxalq münasibətlərin iştirakçısı kimi mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın subyekt dairəsinin genişlənməsinə kömək etməlidir, insanların və mədəniyyət təşkilatlarının müstəqil beynəlxalq mədəni əlaqələrini təşviq edir. Bəyannamə mədəniyyət sahəsindəki əməkdaşlığı qanuniləşdirən hüquqi aspektləri təşkil edir.

20 oktyabr 2005-ci il tarixində YUNESKO Mədəni Müxtəlifliyin Müdafiəsi və Təşviqi Konvensiyasını qəbul etmişdir. Bu konvensiya mədəniyyət sahəsində dövlətlərarası beynəlxalq əməkdaşlığın vacibliyini və mədəniyyət sahəsində dövlət tədbirlərinin legitimliyini təsdiq edən konsensusdur.[35]

**1.2. *"Dinlərarası konfliktlərin aradan qaldırılmasında elmi–metodoloji prinsiplərin əhəmiyyəti"*** adlı ikinci bəndində isə dinlərarası yaranan konfliktlərin səbəbləri araşdırılmışdır. Əsas üç dinin (islam, xristianlıq və iudaizm) müqaisəsi və müqəddəs kitablardakı Allahın buyurduqları müqaisə edilmişdir.

Azərbaycan çoxmillətli ölkədir, burada çoxlu etnik qrup və müxtəlif xalqların nümayəndələri yaşayır. Lakin əsasən daha geniş üç din yayılıb: islam, xristianlıq və iudaizm. Bütün dinlərin əsası Tövhid inancından gəlsə də, hərəsi özünə məxsus formalaşaraq yeni istiqamətlər yaradıb. Bu fərqi göstərmək üçün, əsas üç dinin müqayisəsi aparılıb.

---

[34] Организация Объединенных Наций. Сборник документов, относящихся к созданию и деятельности. М., 1956.

[35] Водопьянова Е.В. Культурная политика Европейского Союза и вызовы времени // Современная Европа. 2008. № 4.

**Cədvəl 1.1.**

***Əsas üç dinin müqayisəsi***

| **Fəlsəfi suallar** | **İudaizm** | **Xristianlıq** | **İslam** |
|---|---|---|---|
| ***Vahid həqiqi din və həqiqi yazılar haqqında*** | İudaizm və Müqəddəs Yazı - (Tanax və Talmud) | Xristianlıq və Bibliya (Əhdi-Ətiq və Əhdi-Cədid) | İslam və Müqəddəs Kitab (Quran ) |
| ***İlk günah haqqında*** | Adəmə, onun nəfsinə və Tanrının mərhəmətinnən məhrum olunmasına və əzəl günaha inam. | İudaizmdə olduğu kimi eyni. | İudaizmdə olduğu kimi, lakin bir fərqnən ki, Allah Adəmi bağışlayır. Buna görədə əzəl günah yoxdur. |
| ***Allahın gücünün subutu haqqında*** | Sübütu tarixi Nəticədə görmək olar. | Sübüt - İsa peyğəmbərin dirilməsi. | Sübüt – Quranın özü və ətraf aləm. |
| ***İnsanın Allah qarşınındaki öhdəlikləri*** | Yahudiləri Tanrı qarşınıda öhdəlikləri var, çünki o, onları Misir əsirliyindən azad etdi | İnsan Tanrıya borcludur, çünki o, öz oğlunu, insan günahlarının bağışlanması üçün, qurban verdi. | Xüsusi öhdəliklər yoxdur. İnsanın motivasiyası-cəhənnəmə düşməmək. |
| ***Xilas yolları*** | Xilas yolu-Tövratda verilən qanunlara riayət etmək | Xilas yolu- İsa peyğəmbərin Tanrı və Xilaskar kimi qəbul olunmasındadır. | Xilas yolu-Allaha bütövlükdə tabe olmaq |

***Mənbə:*** *Alınan məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.*[36]

Dissertasiyanın ikinci fəsli "**Dünya təcrübəsində multikulturalizm modelləri və nəticələrinin təhlili**" adlanır. **2.1.** ***"Qloballaşma dövründə multikulturalizm modelləri və onların müqaisəsi"*** bəndində dünyada mövcud olan əsas multikulturalizm modelləri haqqında ümumi məlumat verilmişdir.

[36]Все религии мира: энциклопедический справочник/С.В.Алексеев, Г.А.Елисеев. -Москва: «Вече», 2007-592с.

Müxtəlif mədəniyyətlərin qloballaşma dövründə bir yerdə yaşaması problemi xüsusi əhəmiyyət kəsb edir. Müasir dünyada miqrasiya prosesləri çox sayda dövlətləri əhatə edir və bu proseslər çoxmillətli bir cəmiyyətdə etno-mədəni qarşılıqlı problemə səbəb olur. Bu problemin öyrənilməsi mədəni əlaqələrin uyğunlaşmasına ən mütərəqqi meylləri və müasir yanaşmaları üzə çıxarmağa imkan verir. Bu ideologiya Avstraliya, Kanada, ABŞ və digər ölkələrdə 40 ildən artıq müddətdə həyata keçirilir.

Multikulturalizm – ölkədə və ümumilikdə dünyada mədəni fərqlərin qorunub saxlanmasında və inkişafında istiqamətlənən siyasətdir və belə siyasəti əsaslandıran nəzəriyyə, ideologiyadır.

Multikulturalizm bütün mədəniyyətlərin bir yerdə birləşməsi, inteqrasiyası və qarşılıqlı bir–birinə keçməsidir.

İkinci fəslin ***2.2. "Azərbaycanda-multikulturalizm rəsmi dövlət siyasəti və ideologiyası kimi"*** adlı ikinci bəndində Azərbaycan Multikulturalizm modelinin xüsusiyyətləri açıqlanaraq, rəsmi dövlət siyasəti və həyat tərzinə çevrilməsinin səbəbləri göstərilmişdir.

Azərbaycan cəmiyyətini təşkil edən müxtəlif etnik və sosial qrupların maraqlarının obyektiv həyata keçirilməsi üçün siyasi sistemin demokratiya prinsipləri əsasında nəzərdə tutulur. Azərbaycanın multikulturalizm siyasətinin əsasında bu qrupların maraqlarının əks etdirilməsi vətəndaşların əsas azadlıq və hüquqlarına, dövlət maraqlarına zidd olmayan, sosial–siyasi struktura uyğun şəkildə həyata keçirilməlidir. Vətəndaş cəmiyyətinin formalaşmasında vətəndaşların irqi, etnik və ya dini mənsubiyyətindən asılı olmayaraq ilk növbədə mədəni, siyasi və iqtisadi maraqlar nəzərə alınmalıdır.

Ümummilli lider Heydər Əliyevin hakimiyyəti apardığı siyasət nəticəsində dini konfessiyalarla və milli azlıqlarla bağlı bir çox normativ hüquqi aktlar qəbul edilmişdir. Azərbaycan Respublikası, ulu öndərin yürütdüyü siyasətlə, ölkədə məskunlaşan etnik–mədəni və dini müxtəlifliyin tolerant əsaslarını gücləndirərək hüquqi, demokratik dövlət quruculuğunun əsasını qoydu.

12 noyabr 1995–ci ildə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyasında da multikulturalizm siyasətini aydın şəkildə görmək olar, eyni zamanda dövlətimiz BMT–nın qəbul etdiyi aktlara və bir sıra digər konvensiyalara da qoşulub.

Həmçinin Ümummilli lider Heydər Əliyevin davamçısı İlham Əliyev tərəfindən multikultural ənənələrin qorunması və inkişafı məqsədi ilə tətbiq edilən siyası xətt hal–hazırda da davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008–ci ildə "Baki prosesi" adlı təşəbbüsünü, Bakıda keçirilən "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" adlı konfransda irəli sürmüşdür. Həmin konfransda ilk dəfə olaraq 48 ölkənin (onlardan 10–nu islam ölkələri olmaqla), dövlət və qeyri–dövlət təşkilatlarının təmsilçilərinin iştrakı ilə "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul olunmuşdur.

"Bakı prosesi" mədəniyyətlərarası və sivilizasiyalar arası dialoqun inkişafını nəzərdə tutan bir layihədir. "Bakı prosesi" ideyasının məqsədləri aşağıdakılardır:

- Qərb və müsəlman cəmiyyətləri arasında əməkdaşlığı inkişaf etdirmək;
- Mədəniyyətlər arasında tolerantlığın, anlaşmanın və dialoqun inkişafını yaratmaq;
- Xalqlar arasında yaranan mədəni və dini gərginliyi azaldaraq, sakitləşdirən və barışdıran qüvvələrə dəstək olmaq;
- Mədəniyyətlər arasında qarşılıqlı anlaşma və hörmət yaratmaq;
- Qarşılıqlı dialoq və anlaşma prosesində incəsənət və yaradıcılıq adamlarını yardımcı qüvvə kimi tanıtmaq, bədii və mədəni fəaliyyətləri dəstəkləmək;
- Mədəni irsin, incəsənətin və mədəniyyətin potensialının mədəniyyətlərarası əməkdaşlığın və dialoqun reallaşmasında daha səmərəli istifadə etmək;
- Səlahiyyətli regional və beynəlxalq təşkilatlar arasında vətəndaş cəmiyyətinin və üzv ölkələrinin dəstəyi ilə dialoqu inkişaf etdirmək.[37]

"Bakı prosesi" təşəbbüsü Azərbaycan multikulturalizminin beynəlxalq aləmdə təzahürüdür. Azərbaycan etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün xalqların və dinlərin nümayəndələrinə eyni münasibət göstərir, onların arasında qarşılıqlı

---

[37]http://bakuprocess.az/wp-content/uploads/3rd-World-Forum/16.02.2018/ Baku Process

hörmət, dostluq, anlaşma və əməkdaşlıq münasibətləri yaradır, eyni münasibəti beynəlxalq səviyyədə müxtəlif sivilizasiyalara və mədəniyyətlərə aid olan dövlətlər arasında yayaraq onlar arasında dialoqun inkişaf etdirilməsi üçün qlobal işlər reallaşdırır. Dialoqun inkişaf etdirilməsi məqsədiylə Azərbaycanda təşkil olunan bu kimi beynəlxalq tədbirlər və forumlar, dövlətimizin multikulturalizm sahəsində əldə etdiyi uğurların ictimaiyyət tərəfindən rəğbət qazanması və bu işlərə verilən yüksək qiymətdir. 24 oktyabr 2011–ci ildə Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin plenar iclasında, Azərbaycan həmin təşkilatın Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu isə Azərbaycanın beynəlxalq diplomatik uğurlarının təzahürüdür və keçirdiyi tədbirlər nəticəsində nüfuzunun artmasının göstəricisidir. 155 ölkənin dəstəyi sayəsində 2012–2013–cü illərdə Azərbaycan Şərqi Avropa bölgəsini BMT Təhlükəsizlik Şurasında təmsil etmək hüququnu qazandı. Dövlət başçımız cənab İlham Əliyev BMT Təhlükəsizlik Şurasına üzv olmaq imkanını qazandığımız üçün fəxr etdiyini söylədi və beynəlxalq ictimaiyyətin Azərbaycanı dəstəkləməsini və etibar etməsini səsvermədə əks etdiyini qeyd elədi.[38]

28 fevral 2014–cü il tarixli sərəncama əsasən, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi, 15 may 2014–cü ildə isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tolerantlığın və dini, mədəni, linqvistik müxtəlifliklərin qorunması üçün, eyni zamanda Azərbaycanı bütün dünyada multikulturalizm və tolerantlıq mərkəzi kimi tanıtmaq, multikultural modellərini təşviq etmək məqsədi ilə yaradılmışdır. Cənab İlham Əliyevin 11 yanvar 2016–cı il tarixli Sərəncamına əsasən 2016–cı il "Multikulturalizm ili" kimi elan olunmuşdur. Ulu öndərin yaratdığı və İlham Əliyevin davam etdirdiyi bu cür siyasətlə inkişaf edən Azərbaycan digər ölkələr üçün örnək ola biləcək multikulturalizm modelini formalaşdırıb. Cənab İlham Əliyev hər zaman öz çıxışlarında qeyd edir ki,:"*Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar və bu siyasət bu gün də davam etdirilir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti çox səmərəlidir və gözəl nəticələrə gətirib*

[38]http://president.az/mobile/articles/15251/22.10.2017/Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

*çıxarır. Bizim tarixi keçmişimiz, mədəniyyətimiz onu göstərir ki, müxtəlif dinlərin nümayəndələri Azərbaycanda həmişə çox rahat yaşayıblar, bir ailə kimi yaşayıblar. Bizim tarixi, dini abidələrimiz həm qədim tariximizi göstərir, eyni zamanda, göstərir ki, Azərbaycan müxtəlif dinlərin nümayəndələri üçün doğma diyar, doğma məkan olmuşdur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə tikilmiş və bizim Şamaxı şəhərində yerləşən məscid milli sərvətimizdir. Eyni zamanda, digər qədim şəhərimizin - Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi yerləşir. Hər iki məbəd əsaslı şəkildə təmir və bərpa edilib, dövlət tərəfindən qorunur. Bakıda qədim atəşpərəstlik məbədi Atəşgah yerləşir. Bu da onu göstərir ki, Azərbaycanda Zərdüştlük dininin ənənələri vardır.*

*Ənənəvi dinlərin məbədlərinin - katolik, pravoslav kilsələrinin, sinaqoqların bərpası və tikintisi Azərbaycanda reallıqdır. Bu reallıq ölkəmizdə çox gözəl ictimai iqlim yaradır. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Qeyd etməliyəm ki, artıq tarixi keçmişimiz də bunu diktə edir. Eyni zamanda, multikulturalizm Azərbaycanda həyat tərzidir. Biz gündəlik həyatımızda bu prinsiplər əsasında fəaliyyət göstəririk. Bu prinsiplər cəmiyyətin mütləq əksəriyyəti tərəfindən dəstəklənir, müdafiə edilir*”. [39]

Dissertasiyanın üçüncü fəsli “**Multikultural cəmiyyətdə tolerantlığın təmin edilməsi və konfliktlərin aradan qaldırılması**” adlanır. Bu fəsildə **3.1.** “***Azərbaycanda tolerantlığın əsas amili***” adlı bəndində Azərbaycan Respublikasında mövcud olan müxtəlif xalqlar və milli azlıqlar haqqında ətraflı məlumat verilmişdir. Onların sayı və sıx yerləşdikləri bölgələr göstərilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən etnik azlıqlar və digər xalqlar üçün yaradılmış şəraitdən bəhs edilmişdir. Azərbaycanda mədəni müxtəlifliyin səbəbləri müəyyən olmuşdur. İnsan rifahına xidmət edən istiqamətlər araşdırılaraq, təkliflər verilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev multikuitural və tolerant dəyərləri yaşatmaq naminə Azərbaycan multikulturalizminin siyasi əsaslarını qurdu: siyasi bəyanatlar, sənədlər, fərmanlar, sərəncamlar və Konstitusiya bəndlərini həyata keçirtdi.

[39]http://azertag.az/xeber /19.11.2017/ Azərtac- son xəbərlər

Ulu öndər Heydər Əliyev 1993-cü ildəki andiçmə mərasimində bunları söyləmişdir: "*Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun tarixi var və bu tarixlə, respublikanın ictimai-siyasi mənzərəsi ilə fəxr edirik. Respublikamızın bütün vətəndaşları dini və milli mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər. Bundan sonra da vətəndaşların Azərbaycanın ictmai-siyasi hərəkatında iştirak etmələri üçün imkanlar yaradılacaq*".

2001-ci ildə keçirilən tədbirlərin birində Heydər Əliyev qeyd etmişdir: "*Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik.*" Ümummilli liderimizin yaratdığı müdrik siyasəti ilə formalaşmış multikulturalizm ənənəsini inkişaf etdirərək yeni müstəviyə keçirmişdir. Bakıda Dünya Azərbaycanlılarının I Qurultayında söylədiyi fikir isə bütüb xalqın şüarına çevrilmişdir: "*Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı yaşatmalıyıq*".[40]

Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsində deyilir ki, Dövlət irqindən, milliyyətindən, dilindən, dinindən və mənşəyindən asılı olmayaraq hər kəsin bərabərliyinə təminat verir. Vətəndaş hüquqlarını və azadlıqlarını milli, dil, dini, irqi, əqidə, mənşəyi, siyasi və digər mənsubiyyətə görə məhdudiyyət qoymaq qadağandır.

Azərbaycanda məskünlaşan hər bir xalq öz etnik xüsusiyyətini saxlamaqla azərbaycan dilində və həm də, özünün etnik dilində danışır, ümummilli və etnik bayramları qeyd edirlər, öz mədəni mərkəzlərini, assosiasiyalarını və digər qurumlarını yaradırlar, öz dillərində müxtəlif qazetlər və materiallar dərc edirlər, radio və televiziya proqramları yayımlayırlar, orta məktəbdə azərbaycan və öz dillərində dərs keçirlər, öz ölkəsinin tarixini və millətinin tarixini öyrənirlər. Azsaylı xalqların və milli azlıqların qorunması, maddi və mənəvi mədəniyyətlərin öyrənilməsi məqsədilə, respublikamızda mədəniyyət mərkəzləri yaradılmışdır.

---

[40] http://multikulturalizm.gov.az/post/1588/azerbaycan-multikulturalizmi-ve-heyder-eliyev.html

Azərbaycan yeganə ölkədir ki, burada dini və etnik ədavət sayından asılı olmayaraq, dini azlıqlarla münasibətdə ayrı-seçkilik qoymur və bu rəngarənglik baxımından palitranı xatırladır. Onlar bir azərbaycan ailəsidir. Dövlətimiz onların hər birinə ayrı-ayrılıqda eyni qayğı bəsləyir, azsaylı xalqların mətbəxini, adət-ənənəsini, folklorunu əhatə edən filmlər və verilişləri dünya dillərinə tərcümə etdirərək Avropa tamaşaçılarına təqdim edir, özlərinə xas adət-ənənələri, mədəni örnəkləri qoruyub saxlayır.Azərbaycanda mədəni müxtəlifliyin əsas başlıca səbələrindən biri bu xalqların qədimdən birlikdə yaşaması olmuşdur.

Hal-hazırda Azərbaycan ərazisində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin verdiyi məlumata görə milli azlıqlar ölkə əhalisinin 9,4%-ni təşkil edir və bu azsaylı xalqların sayı 14-dür. [41]

**Cədvəl № 1.2.**

***Azərbaycan Respublikasında yaşayan milli azlıqların sayı***




[41]http://www.mfa.gov.az/content/114 /01.09.2018/ Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi

Mədəni müxtəliflik və plüralizm mədəniyyətin əsas amillərindəndir. Azərbaycan qədimdən çoxdinli, çoxmillətli və çoxdilli ölkə olmuşdur, buna səbəb isə ölkənin unikal mədəni, geosiyasi və coğrafi məkan olmasıdır.

Azərbaycanın apardığı siyasətdə məqsəd milli azlıqların mədəni irsinin qorunub saxlanılması, xalqlar arasında mehriban birgəyaşayışa, səmimi ünsiyyətə, qardaşlığa stimul verdiyini göstərməkdir. Azərbaycan hökuməti tərəfindən həyata keçirilən milli və beynəlxalq səviyyəli tədbirlər azərbaycan xalqının həmrəyliyini möhkəmləndirir, ölkəmizi mədəniyyətləri və sivilizasiyaları qovuşduran məkan kimi beynəlxalq arenada nüfuzunu artırır. Bir sözlə, Azərbaycanın apardığı multikulturalizm siyasəti dünyaya numunədir və bu siyasətin alternativi yoxdur.

**3.2** "***Azərbaycanda mövcud mədəniyyətlərin təhlili və insanın rifahına xidmət edən məqamlarının təbliği***" adlı bəndində Azərbaycanda mədəni müxtəlifliyin səbəbləri müəyyən olmuşdur. İnsan rifahına xidmət edən istiqamətlər araşdırılaraq, təkliflər verilmişdir.

Əhalinin rifahının yaxşılaşdırılması və həyat keyfiyyətinin yüksəldilməsi üçün bir neçə təklifimiz var, onları proqram şəklində reallaşdırmaq mümkündür:

- Azərbaycan ərazisində yaşayan vətəndaşlara ağır həyat şəraitindən çıxmaq üçün şərait yaratmaq, həyat səviyyələrinin və rifahlarını yaxşılaşması üçün yardım etmək;
- gənc nəslin yaşayış şəraitinin yaxşılaşdırılmasına və həyat keyfiyyətinin artırılmasına kömək etmək;
- yeni qurulan ailələr üçün yardımlar və sosial dəstək göstərmək;
- şagirdlər və tələbələr üçün güzəştli xidmətlər təşkil etmək;
- yaşlı insanlar üçün səhiyyə sahəsinin əlverişli olmasını təmin etmək.

Proqramın əsas məqsədinin reallaşmasına aşağıda qeyd etdiyimiz məsələləri həll etməklə nail olmaq mümkündür:

- ağır həyat şəraiti olan vətəndaşlara birdəfəlik ünvanlı maddı yardımın verilməsi;
- sosial yardımı olmayan ailələrə birdəfəlik ünvanlı maddı

yardımın göstərilməsi;

- yaşlı insanların həyat keyfiyyətinin və rifahının yaxşılaşdırılması üçün əlavə sosial dəstək tədbirlərinin həyata keçirilməsi;
- Azərbaycan Respublikası ərazisində gediş haqqı və digər xidmətlərin kompensasiyası və ya güzəşti.

Uzunmüddətli məqsədli proqramın həyata keçirilməsi iqtisadi baxımdan hər bir halda vəziyyətin fərdi qiymətləndirilməsini nəzərə alaraq büdcənin pul vəsaitlərini qənaətlə bölüşdürməyə imkan verəcəkdir. Təklif olunan proqram ehtiyacı olan vətəndaşlara lazımı dərəcədə dövlət dəstəyinin əlverişliyini təmin edəcək və istehlakçı seçimində əhalinin qalan hissəsi ilə bərabər imkanlar yaradacaqdır.

Təhlil göstərir ki, "həyat keyfiyyəti" anlayışı insanın cəmiyyətdə mövqeyini müəyyən edən statistik, sosioloji, iqtisadi və riyazi faktorların kompleks törəməsidir. Həyat keyfiyyəti konsepsiyasının praktiki tətbiqi zamanı "həyat keyfiyyəti", "həyat tərzi", "şərait" və "həyat səviyyəsi" anlayışları aylrmaq lazımdır. Həyat keyfiyyəti insanların həyat tərzinin məhsuldarlığını göstərir. Həyat səviyyəsi və şəraiti həyat keyfiyyətinin struktur komponentləridir. Əhalinin həyat keyfiyyətinə iqtisadi proseslərin tənzimlənməsinə dair dövlət siyasəti təsir edir. Hal–hazırda dövlət əhalinin həyat səviyyəsi və keyfiyyətinin yüksəldilməsi üçün müxtəlif tədbirlər həyata keçirir. Artıq bu tədbirlər əhalinin rifahının yaxşılaşdırılması və yoxsulluğun azaldılması şəklində müəyyən nəticələr verir.

**Nəticə.** Tədqiqat işində multikulturalizm fenomeninin fəlsəfi təhlil ideyası müasir cəmiyyətin formalaşmasında aparıcı amil kimi məqsəd qoyulmuşdur. Müasir Azərbaycanda tolerant şüurun və multikulturalizmin formalaşmasının və inkişafının xüsusiyyətlərini tədqiq edərək bir sıra nəticələr verilmişdir.

Yerli və xarici ədəbiyyatın təhlili və təcrübəsi müəllifə Azərbaycan kimi bir ölkə üçün xüsusilə vacib olan multikulturalizmin xüsusiyyətlərini müəyyən etməyə imkan verdi. İlk növbədə vurğulamaq lazımdır ki, multikulturalizm- adətən başa düşülən milli azlıqlar üçün siyasət deyil, daha çox müxtəlif qrupların sosial və psixoloji bərabərsizliyin aradan qaldırılması üçün bir mexanizmdir. Multikulturalizmin kompensasiya edici xarakteri bundan təzahür edir. Multikulturalizmin məqsədlərindən biri də ölkənin bütün

vətəndaşlarının mədəni identiklərini qorumağa və nəzərə almağa imkan verən ümummilli identiklik strukturunun yaradılmasıdır.

Başqa bir məqsədi müxtəlif millətlərin nümayəndələri üçün maneələrin aradan qaldırılması, onlara cəmiyyətin imkanlarından və ehtiyyatlarından (resurs) bərabər istifadə imkanı verməkdir. Bu mənada multikulturalizm bütün millətlərarası ilk növbədə də mədəniyyətlərarası ziddiyyətlərin zəiflədiyi, müasir ədalətli cəmiyyət yaratmaq vasitələrindən biri kimi qəbul edilə bilər.

Dissertasiya tədqiqatında göstərildiyi kimi, dövlətin multikulturalizmdə rolu, ilk növbədə müxtəlif qruplar arasında qarşılıqlı əlaqələrin təmin edilməsindən; ikincisi isə multikultural reallığın formalaşmasından ibarətdir. Belə olan halda formalaşma vasitəsi kimi bütün əhali ilə qarşılıqlı fəaliyyətdə olan dövlət institutları çıxış edir. Beləliklə, multikulturalizm və ya onun elementləri Azərbaycan üçün müasir şəraitdə yeni millətlərarası münasibətlərin yaradılması üçün həyati zərurət və həyat tərzidir.

Dünyada millətçiliyin, ksenofobiyanın və ekstremizmin artdığı zaman multikulturalizm münaqişələrin həlli metodur və Azərbaycanın dövlət siyasətinin bir hissəsidir. Lakin, dissertasiyada verilən təcrübə göstərir ki, multikulturalizmin çevikliyi millətlərarası münasibətlərin ən problemli aspektləri baxımından multikultural yanaşmalardan istifadə etməyə imkan verir, bütövlükdə gərginliyi götürərək tolerant şüurun formalaşmasına kömək edir.

Multikulturalizm terminin müəyyənləşdirilməsi zaman onun interkulturalizm və tolerantlıq məfhumları ilə təhlil edilməsinə yardım edir. Əgər bu terminə mövcud olan yanaşmaları ümumiləşdirsək, belə nəticəyə gəlmək olar ki, “multikulturalizm” anlayışı mədəni identikliyin qorunub saxlanması və çoxmillətli dövlətdə tolerantlıq ideyalarının həyata keçirilməsi deməkdir. Tolerantlıq isə multikulturalizm siyasətinin əsasını təşkil edir. Multikulturalizm və interkulturalizm terminlərinin təhlili isə bizə onların arasında olan fərqli cəhətləri müəyyən etməyə komək edir. Belə ki, interkulturalizm şəraitində hər bir etnik-mədəni qrup öz mənsubiyyətini və kimliyini qorumaqla yanaşı digər mədəni-etnik qruplarla əməkdaşlıq edir, qarşılıqlı dialoqu inkişaf etdirir.

Aparılan tədqiqatlar nəticəsində, mədəniyyət fəlsəfəsinin baza

kateqoriyasına görə, biz bu anlayışı konfliktsiz yaşamaq və çoxsaylı mədəniyyətlərin eyni ərazidə bərabərlik şəraitində qarşılıqlı fəaliyyəti və milli mədəniyyətin hər bir nümayəndəsinin özünü təsdiqi kimi müəyyən edirik.

Multikulturalizm siyasətinin formalaşmasından əvvəl dövlət mədəni, etnik, irqi və dini müxtəliflikləri əsasən iki siyasət modeli vasitəsi ilə tənzimləməyə cəhd ediblər: izolyasiya və assimilyasiya modelləri.

İzolyasiya siyasəti iki yolla baş verir: 1) bu siyasət, milli azlıqların və müxtəlif xalqların ölkədə məskunlaşmasına mane olur; 2) dövlətdə artıq məskunlaşmış müəyyən qrupların assimilyasına mane olmaq üçün onları təcrid edir.

Assimilyasiya siyasəti isə müxtəlif xalqların və milli azlıqların mədəni-etnik dəyərlərini aparıcı (domenant) etnosun mədəniyyətinə qarışması nəticəsində cəmiyyətdəki dini, etnik, irqi və mədəni müxtəlifliklərin ləğv edilməsini nəzərdə tutur.

Multikulturalizm dini, irqi, mədəni və etnik müxtəlifliklərin tənzimlənməsinə yönələn siyasət kimi, assimilyasiya siyasətindən fərqli olaraq müxtəlif xalqların və milli azlıqların etnik-mədəni dəyərlərinin, adət-ənənələrinin silinməsinin qarşısını almaqla, bu dəyərlərin qorunub saxlanılmasına kömək edir. Multikulturalizm siyasətinin izolyasiya siyasətindən isə fərqi müxtəlif xalqların və milli azlıqların etnik-mədəni dəyərləri, adət-ənənələri ilə domenant etnosun etnik-mədəni dəyərlərinin, adət-ənənələrinin bir-birinə qarşılıqlı təsir etməsi üçün şəraitin yaradılmasıdır və müxtəlifliklərin yaşadıqları cəmiyyətə manesiz inteqrasiya olmaları üçün dəstək olmasıdır. Beləliklə, belə nəticəyə gəlmək olar ki, multikulturalizm siyasəti müxtəlif xalqların və milli azlıqların etnik-mədəni dəyərlərinin, adət-ənənələrinin inkişafını cəmiyyətin və dövlətin inkişafından təcrid etmir və onların assimilyasiya uğramasının qarşısını alır. Bu siyasət domenant etnos ilə müxtlif xalqların və milli azlıqların etnik-mədəni dəyərlərinin, adət-ənənələrinin inkişafına bərabər şərait yaratmaqla yanaşı onların mədəniyyətlərinin qarşılıqlı dialoqu və təsiri üçün zəmin yaradır.

Multikulturalizm siyasətinin daha da inkişaf etdirilməsi: Azərbaycanda müxtəlif xalqların və etnik azlıqların qarşılıqlı

əlaqələrinin inkişaf dinamikasını izləməyə; cəmiyyətin sosiomədəni dəyişiklikləri dövrlərində destruktiv və konstruktiv tendensiyaların qarşılıqlı əlaqəsini aşkar etməyə; qloballaşma prosesinin mədəniyyətlərin yaxınlaşmasına təsiri dərəcəsini müəyyənləşdirməyə imkan verəcək.

Azərbaycanda məskunlaşan etnik qrupların və müxtəlif xalqların nümayəndələrini bü gün müasir Azərbaycanın hər bir sahəsində - iqtisadiyyatda, idmanda, siyasətdə, mədəniyyətdə və digər sahələrdə görmək mümkündür.

Multikulturalizm siyasəti Azərbaycançılıq ideologiyasının tərkib hissəsidir və bu ideologiyanın yayılmasını təmin edən eyni zamanda da onu möhkəmlədən mexanizmdir. Azərbaycanda yaşayan milli azlıqların və müxtəlif xalqların nümayəndələrinin etnik-mədəni dəyərlərini, adət-ənənələrini qorumaqla multikulturalizm siyasəti Azərbaycançılığın sosial bazasını möhkəmlədir və onun ölkədə yaşayan bütün etnik qrupların və xalqların ideologiyasına çevirir. Azərbaycan xalqının iqtisadi, siyasi, mədəni və sosial yüksəlişini təmin etməkdə Azərbaycançılıq ideologiyası multikulturalizm siyasətindən önəmli bir üsul kimi istifadə edir. Bu ideologiya dilindən, irqindən, dinindən asılı olmadan Azərbaycan Respublikasında yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndər Heydər Əliyevin dediyi kimi: "*Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır* ".[42]

Beləliklə, Azərbaycan multikulturalizm modelinin hüquqi və siyasi qaynaqların formalaşması qədim tarixə malikdir. Azərbaycan multikulturalizminin siyasi qaynaqları bu ərazidə yaranan ilk tayfa birliklərində özünü göstərirdi. Lakin hüquqi qaynaqlar isə tarixin sonraki proseslərində formalaşır. Azərbaycan multikulturalizminin siyasi və hüquqi qaynaqları ölkədə insanların davranışlarını tolerantlığa, multikulturalizmə əsaslandıraraq, cəmiyyətdəki mültikulturalizm ənənələrini inkişaf etdirərək bu mühiti möhkəmlədir.

"İlkin müxtəliflik" və "sonraki müxtəliflik" anlayışlarını təhlil

---

[42]https://xalqqazeti.com/az/news/75871

etsək bu günkü şəraitdə hansı ölkədə multikulturalizm siyasətinin iflasa uğradığını, hansıda isə uğur qazandığını öyrənə bilərik. “Sonraki müxtəliflik” – mənəvi baxımından formalaşma prosesini bitirən ölkələrdə, sonradan oraya miqrasiyaların yeni dalğası ilə yad multikultural dəyərlərın və baxışların gəlməsidir və formalaşmış cəmiyyət tərəfindən bu müxtəlifliklərin qəbul edilməməsidir. “İlkin müxtəliflik” isə hər hansı bir müxtəlifliyin ilk başlanğıcdan birlikdə, yanaşı mövcudluğudur və özündə miqrasiya elementini saxlamıyan anlayışdır.

Azərbaycanda sağlam multikultural mühitin olması – müxtəlif etnik birliklərin, konfessiyaların mehribançılıq və dostluq şəraitində yaşaması və qarşılıqlı münasibətlərin qurulması tarixin qədim dövrlərindən bü günədək davam edir. Bir sıra Qərb ölkələrin orada multikulturalizm siyasətinin iflasa uğradığı qeyd edildiyi dövrdə Azərbaycanda Respublikasın multikulturalizm dövlət siyasəti və azərbaycanlıların həyat tərzi kimi ortaya çıxır. Bu siyasətin davamlı olması üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev optimal və real fəaliyyət göstərir.

Nəticədə düzgün aparılan siyasətin nəticəsində ölkədə multikulturalizmin və tolerantlığın inkişaf etdirilməsi üçün şərait yaradılır. Lakin bununlada parellel olaraq mədəniyyətlərin qarışması nəticəsində hər bir xalqa mənsub mədəniyyətin identikliyi itirilərək digəri tərəfindən mənimsənilir və bu səbəbdən də müxtəlif konfliktlər və mübahisəli məqamlar yaranır. Belə vəziyyətdən çıxış yolu olaraq bir necə təkliflər verilmişdir:

1) hər bir mədəniyyət beynəlxalq qurumlar tərəfindən sertifikatlaşdırılmalıdır ki, hər bir xalqa mənsub olan mədəniyyət digər xalq tərəfindən mənimsənilməsin;

2) ölkələr üzrə mədəniyyətin kökünü və mənsubiyyətini qoruyan beynəlxalq qurumların fəaliyyəti genişləndirilməlidi;

3) başqa bir xalqa mənsub mədəniyyət elementinin bilərək mənimsənilməsi və öz adına çıxarılması müəyyən qurumlar tərəfindən ciddi cəzalandırılmalıdır;

4) bu sahədə fəaliyyət göstərən tədqiqatçılar başqa xalq və qrupların mədəniyyətinin özünküləşdirilməsi prosesinə qarşı ciddi yanaşmalı və elmi-tədqiqat işində bu problemi ciddi təhlil etməlidir.

Beləliklə, son illərin hadisələri müasir dünyanın qloballaşması prosesində tolerant şüurun və multikulturalizm rolunun dərk edilməsi zərurəti yaranır. Bu problemin öyrənilməsi: xarici və yerli alimlərin multikulturalizm nəzəriyyəsinin inkişafı ilə tanış olmaq: təhlil aparmaq, etibarlı məlumat əldə etmək, münaqişə vəziyyətlərini həll etmək üçün optimal yolları seçmək, lazımı qərarların qəbul edilməsinə; ictimai şüurda fəlsəfi ideyaların yayılması və qəbul edilməsinə; müxtəlif növ dərsliklərin, dərs proqramlarının hazırlanmasına; mədəniyyətlərarası qarşılıqlı əlaqələrin və mədəniyyətlərarası təcrübələrin öyrədilməsi vasitəsi kimi istiqamətləri müəyyənləşdirməyə şərait yaradır. Bununla da, mədəniyyətlərarası yaranan problemlər bu sahədə aparılacaq tədqiqatlar və perspektivlərin zərurliyini şərtləndirir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. The influence of national culture in formation of the younger generation// "Gənc tədqiqatçıların Beynəlxalq Konqresi". Beynəlxalq elmi konfransın materialları. Sıtkı Koçman Universiteti, Türkiyyə, Muğla. 27-31 May, 2016, s.304-307
2. Сохранение национальной культуры в процессе диффузии//"Azərbaycanda multikulturalizm yaşam tərzidir". Respublika elmi konfransın materialları. Bakı, 2016, s.92-94
3. Использование традиций мультикультурализма в управлении // "Müasir dövrdə effektiv idarəetmənin problemləri". Respublika elmi konfransın materialları. Bakı, 2016, s.115-116
4. Азербайджанская модель мультикультурализма // Вестник КазНУ. Казахский Национальный Университет имени Аль-Фараби. Астана, Казахстан. 2017, № 2 (60), Стр.283-290
5. Dinlərin təhlilində elmi-metodoloji prinsiplərin tətbiqi // "Mədəniyyət Dünyası" elmi-nəzəri məcmuə. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı 2017, № XXXIII, s.27-32
6. Mədəniyyətlərarası əlaqələrin formalaşması // ATMU-nun

"Turizm və qonaqpərvərlik tədqiqatları" beynəlxalq jurnalı. Bakı 2017,il 6, № 1, s. 246-256
7. Multikulturalizm və mədəniyyətin turizmin davamlı inkişafında rolu // ATMU-nun "Turizm və qonaqpərvərlik tədqiqatları" beynəlxalq jurnalı. Bakı 2017,il 6, № 4, s. 252-262
8. Azərbaycanda mövcud olan dinlərarası tolerantlığın əsas amilləri // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Elmi əsərlər" adlı elmi jurnal. Bakı 2017, № 24, s.48-54
9. Мультикультурализм-глобализация культур // ATMU-nun "Turizm və qonaqpərvərlik tədqiqatları" beynəlxalq jurnalı. Bakı 2018,il 7, № 1, s.246-256
10. Azərbaycan Multikulturalizmi və Dağlıq Qarabağ // IV International Symposium on Educational and Social Sciences in Turkish Cultural Geography
11. Multiculturalism and cultural diversity in modern nation state // "İdarəetmədə multikultural dəyərlər". Respublika elmi konfransın materialları. Bakı, 2018.
12. Azərbaycanda turizm mədəniyyətlərarası dialoq vasitəsi kimi// Atlas International Journal on Social Sciences, issn-2616-936x, Uluslararası Sosyal Bilimler Kongresi 19-21 Ekim 2018. Kapadokya-Nevşehir.
13. Межкультурная коммуникация как основный элемент современного общества // ATMU-nun "Turizm və qonaqpərvərlik tədqiqatları" beynəlxalq jurnalı. Bakı 2018,il 7, № 3

Dissertasiyanın müdafiəsi "30" iyun 2021-ci il tarixində saat 12:00-da AMEA Memarlıq və İncəsənət İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.34–Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti, 115, 4-cü mərtəbə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Memarlıq və İncəsənət İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "27" may 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.05.2021

Kağızın formatı: A5

Həcm: 45472

Tiraj: 100